Azərbaycan Respublikasının Prezidenti yanında
Elmin İnkişafı Fondu

Azərbaycan Respublikasının
Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi

Bakı şəhəri 28 dekabr 2013-cü il

## Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun və Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin İKT-nin inkişafına yönəlmiş əhəmiyyətli layihələrin dəstəklənməsi məqsədi ilə qrantların verilməsi üzrə 2013-cü ildə keçirilmiş məqsədli birgə İKT müsabiqəsinin (EİF-RİTN-MQM-2/İKT-2-2013-7(13)) nəticələri haqqında

## E L A N

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2013-cü il 28 mart tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında 2013-cü ilin "İnformasiya-kommunikasiya texnologiyaları ili" elan edilməsi ilə bağlı Tədbirlər Planı"nın 29-cu bəndinə əsasən "İKT-nin inkişafına yönəlmiş əhəmiyyətli layihələrin dəstəklənməsi" məqsədi ilə Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu (bundan sonra - Elmin İnkişafı Fondu) cari ildə Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi və digər qurumlarla birgə tədbirlər həyata keçirmişdir.

Elmin İnkişafı Fondu maliyyələşdirdiyi böyük maliyyə həcmli pilot qrant layihələrinin uğurlarını, layihələr çərçivəsində alınaraq quraşdırılmış ultra-modern cihazlarda rəqabət apara biləcək ilkin elmi nəticələrin alınmasını, xaricdə kadr hazırlığının müsbət effektlərini nəzərə alaraq, 2013-cü ildə İKT-nin inkişafına yönəlmiş əhəmiyyətli layihələrin dəstəklənməsi məqsədi ilə nəzərdə tutulmuş bir neçə qrant müsabiqəsindən birincisini İKT üzrə pilot layihə müsabiqəsi kimi elan edərək keçirmişdir.

İkinci İKT müsabiqəsi isə fundamental-tətbiqi, axtarış-innovasiya, maddi-texniki təminat və b. tipli layihələri əhatə etmişdir.

Elmin İnkişafı Fondu və Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi İKT-nin inkişafına yönəlmiş elmi-tədqiqat layihələrinin və tədbirlərinin maliyyələşdirilməsi məqsədi ilə qrantların verilməsi üzrə 2013-cü ildə keçirilmiş məqsədli birgə İKT müsabiqəsinin (EİF-RİTN-MQM-2/İKT-2-2013-7(13)) nəticələrini

ELAN EDİR:

1. Elmin İnkişafı Fondu və Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi 2013-cü il üçün 2-ci məqsədli birgə İKT müsabiqəsinin keçirilməsi haqqında qərarı 5 sentyabr 2013-cü il tarixində internet səhifəsində və kütləvi informasiya vasitələrində elan etmiş və qrant layihələrinin qəbulu üçün müddəti 2013-cü il 6 sentyabr – 7 oktyabr tarixlərini müəyyənləşdirmişdir. Bu müddət ərzində Elmin İnkişafı Fondunun icraçı direksiyası qrant iddiaçılarına kömək məqsədilə 4 məsləhət seminarı təşkil etmiş, telefon və elektron-poçt vasitəsilə olan müraciətlərə cavab vermiş, ortaya çıxan suallara aydınlıq gətirmişdir.
2. Yuxarıda göstərilən müddət ərzində müsabiqəyə 62 layihə daxil olmuş və Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyində müvafiq qeydiyyatdan keçirilmişdir. 2013-cü il 21 oktyabr – 5 dekabr tarixlərini əhatə edən müddətdə bu layihələrin texniki və elmi ekspertizası işi təşkil olunmuşdur. Müsabiqə qaydaları və tələblərinə cavab verməyən 10 layihə texniki ekspertiza mərhələsindən keçməmiş, 52 layihə isə elmi ekspertiza mərhələsinə buraxılmışdır. Ekspertiza işinə Elmin İnkişafı Fondunun daimi ekspertləri və müstəqil elmi ekspertlər cəlb olunmuşlar. Layihələrin qiymətləndirilməsində müsabiqə təşkilatçıları tərəfindən yaradılmış birgə Komissiya da iştirak etmişdir.
3. Elmin İnkişafı Fondunun icraçı direksiyası, daimi və müstəqil elmi ekspertlər təqdim olunmuş layihələrin cari müsabiqənin elmi prioritetlərinə uyğunluq dərəcəsini müəyyənləşdirmiş, layihələrin elmi səviyyəsini, onların yerinə yetirilməsi imkanlarını və potensialını, gözlənilən elmi nəticələrini, mümkün tətbiq ehtimalını ekspertiza qaydalarına uyğun olaraq xüsusi sistem üzrə qiymətləndirmiş, həmçinin maliyyələşdirilmənin məqsədəuyğunluğu və həcmi barədə Elmin İnkişafı Fondunun Himayədarlar Şurası üçün rəylər, arayışlar və tövsiyələr hazırlamışdır.
4. Elmin İnkişafı Fondunun icraçı direksiyasının, daimi və müstəqil elmi ekspertlərin hər bir layihə üzrə hazırladığı və statistik məlumatların daxil olduğu yekun sənədlər toplusuna Fondun Himayədarlar Şurasında baxılmış, ekspertiza qaydalarına uyğun olaraq layihələrin yekun toplanmış ballara görə sıralanmış siyahısı və maliyyələşdirilmə həcmi barədə tövsiyələr müzakirə olunmuş və yekun qərar qəbul edilmişdir. Yekun qərar Himayədarlar Şurasının 2013-cü il 27 dekabr tarixli Protokolu ilə təsdiq olunmuşdur.
5. 2013-cü ildə keçirilmiş məqsədli birgə İKT müsabiqəsi çərçivəsində 29 qalib layihə (siyahı ayrıca şəkildə verilir) müəyyənləşdirilmiş və Elmin İnkişafı Fondunun 2013-cü il 28 dekabr tarixli Qərarı ilə təsdiq olunmuşdur.

6. Cari müsabiqə üzrə ümumi maliyyələşdirilmə həcmi 1 200 000 manat olmuşdur. Elmin İnkişafı Fondu 24 layihənin maliyyələşdirilməsinə bir milyon manat vəsait ayırmışdır, Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi isə 5 layihəni maliyyələşdirəcəkdir.
7. Bu elan verildikdən sonra müəyyənləşdirilmiş müddət ərzində Elmin İnkişafı Fondunun icraçı direksiyası ilə 24 qalib layihənin rəhbəri arasında layihənin yerinə yetirilməsi barədə lazımi sənədlər toplusu hazırlanmaqla müvafiq müqavilə bağlanılacaq və qanunvericiliyə uyğun olaraq Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydiyyatdan keçiriləcəkdir.
8. Elmin İnkişafı Fondu 2013-cü il üçün 2-ci məqsədli birgə İKT müsabiqəsinin qaliblərini təbrik edir, müsabiqə iştirakçılarına və müstəqil elmi ekspertlərə minnətdarlığını bildirir.

**Elmin İnkişafı Fondu**
**Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi**